14 dekabr 2015-ci ci ildə yaradılan **“Bir” Tələbə-Könüllü proqramı 2 avqust 2019-cu ildən “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyi** kimi dövlət qeydiyyatına alınmışdır.

**“Bir Könüllü” Təşkilatı** Azərbaycanın siyasi və iqtisadi inkişafında böyük rol oynayan **tələbə-könüllülərlə** işi sistemləşdirmək, könüllülük fəaliyyətini stimullaşdırmaq, tələbələrin dərsdənkənar asudəvaxtlarının dəyərləndirilməsi üçün yaradılmış **uzunmüddətli proqramdır.**

Təşkilatın məqsədi tələbələrə könüllülüyün mahiyyətinin aşılanması, təbliği üzrə geniş və davamlı şəkildə təbliğat - təşviqat işlərinin aparılması, tələbə-könüllülərin vahid məlumat bazasının inkişaf etdirilməsi, tələbə-könüllülər üçün təlim-tədris proqramları və kurslarının təşkil olunması, tələbə-könüllülərin intellekt səviyyəsinin və dünyagörüşünün genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsidir.

Bizə üzv olmaqla tələbələr şəxsi inkişafları və asudə vaxtlarının səmərəli dəyərləndirilməsi üçün 6 müxtəlif istiqamət (**Öyrən, Öyrət, Yaşa, Yaşat, Kəşf Et, Zövq Al)** çərçivəsində **keçirilən fəaliyyətdə** iştirak edə və setifikat əldə edə bilərlər. Həmçinin, tələbə-könüllülərə iştirak etdikləri tədbirlərə görə sertifikatları onlayn olaraq şəxsi profillərinə yüklənir. Şəxsi profillərində əldə etdikləri sertifikatlarının siyahısına baxa və ya onları yükləyə bilərlər.

Üzv olmaq üçün www.konullu.edu.az saytımıza daxil olaraq qeydiyyat formasının doldurulması kifayətdir. Müraciət edən tələbələrin qeydiyyatı uğurla tamamlandıqdan sonra hər təhsil müəssisəsinin nümayəndələri tərəfindən yeni üzvlərlə saxlanılaraq müsahibə təşkil edilir. Müsahibədən uğurla keçmiş tələbə-könüllülərin üzvlükləri aktiv edilir.

Qeyd edək ki, “Bir Könüllü” Təşkilatı Azərbaycan Respublikası Təhsil Nazirliyi başda olmaqla bir sıra qurum, şirkət və təşkilatlarla əməkdaşlıq edir.


bir
#BİR olaq,
BİRlikdə olaq!